# Unutmayaq- Şəhid Ruslan Hüseynov!

Əziz oxucular, sizlərə ikinci Qarabağ savaşının qəhrəmanlarından biri- şəhid Ruslan Hüseynov haqqında söz açmaq istəyirik.

**Unutmayaq, unutdurmayaq!**



Şəhid Ruslan Vəli oğlu Hüseynov 10 may 1988-ci ildə Beyləqan rayonunda anadan olmuşdur. Hərbi xidməti başa vurduqdan sonra 2014-cü ildə aprel ayının 10-u "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursu"na daxil olmuş, elə həmin ilin iyun ayının 7-si oxuduğu kursu "Kiçik çavuş" rütbəsi ilə bitirib Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində xidmətə başlamışdır.

***Hələ 2016-cı ildə çağdaş Azərbaycan tarixinin aprel döyüşləri səhifəsi yazılarkən Ruslan Hüseynov da sözügedən döyüşlərə qatılıb öz döyüş əzimkarlığını, məsuliyyətini göstərmiş, kəşfiyyatçı kimi qəhrəmanlıq nümayiş etdirmişdir.***

2018-ci ildən "N" saylı hərbi hissədə manqa komandiri vəzifəsində çalışan Ruslan Hüseynov ikinci Qarabağ müharibəsi başlayan zamandan onun iştirakçısına çevrilib bir sıra gərgin döyüşlərdə olmuş, noyabr ayının 1-i Şuşa istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhidlik zirvəsinə yüksəlmişdir.

Onu da qeyd edək ki, Ruslan Hüseynov çalışdığı illər ərzində uğurlu xidmətinə görə bir neçə dəfə rəhbərlik tərəfindən mükafatlandırılaraq Fəxri Fərmanla təltif olunmuşdur.